## Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda daxili və xarici qüvvələrin rolu

**Elçin Zamanlı**[1]

https://doi.org/10.5281/zenodo.7296888

**Xülasə**

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu tariximizin ən böyük milli faciəsidir, çünki böyük millət qurucularının, milli tariximizin yetirdiyi mükəmməl ideya sahiblərinin yaratdığı milli-demokratik dövlətimiz daxili və xarici qüvvələrin dəstəklədiyi bolşeviklərin işğalı ilə bir anda məhv oldu. Fikrimizcə bu problemi tədqiq edərkən tarixi şəffaflıq və elmi obyektivlik naminə Azərbyacan milli-demokratik dövlətinin süqutunda bolşevik Rusiyasına dəstək olmuş bütün tarixi ünsürlər və amillər göstərilməlidir. Cümhuriyyətin məhvi üçün Bkıda gizli və açıq fəaliyyət göstərən yerli bolşeviklərə hər zaman İrandan, Rusiyadan, Türkiyədən və Transqafqazın öz daxilindən fasiləsiz kömək göstərilmişdir.Yeni yaranmış milli hökumətin hələ formalaşmaqda olan təhlükəsizlik orqanlarının bu qədər dağıdıcı ünsürlərə qarşı ardıcıl mübarizə aparması mümkün deyildi.

**Açar sözlər**: Cümhuriyyət, süqut, bolşeviklər, Rusiya, Türkiyə

## The role of internal and external forces in the downfall of the Democratic Republic of Azerbaijan

**Abstract**

The fall of the Azerbaijan Democratic Republic is the greatest national tragedy of our history. Due to the Bolsheviks' invasion, which was supported by both internal and external forces, our national-democratic state, which was built by the great nation-builders and the owners of the ideals that our national history has given us, was instantly destroyed. In our opinion, when studying this problem, for the sake of historical transparency and scientific objectivity, all historical elements and factors that supported Bolshevik Russia in the fall of the national-democratic state of Azerbaijan should be shown. The local Bolsheviks in Baku, who are operating both secretly and openly, have always received consistent support from countries like Iran, Russia, Turkey, and the Transcaucasia region itself with the purpose of destroying the republic. It was impossible for the nascent security forces of the nascent national government to consistently fight against such destructive elements.

**Keywords**: Republic, collapse, Bolsheviks, Russia, Turkey

### Giriş.

Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb bir dövrdə yarandı və Paris Sülh konfransında yeni milli-demokratik dövlətin tanınması uğrunda gərgin mübarizə aparıldı. Lakin Birinci Dünya

[1] Dos.Dr.Naxçıvan Dövlət Universiteti, Tarix-filologiya fakültəsi, Azərbaycan tarixi kafedrasının müəllimi, zamanlielcin@yahoo.com

müharibəsi başa çatdıqdan sonra özünü hiss etdirən yeni geosiyasi proseslər Azərbaycan xalqına bu tarixi nailiyyəti möhkəmləndirməyə imkan vermədi. AXC 1920-ci ilin aprelində yalnız bolşevik Rusiyasının göndərdiyi avantüraçı casuslar vasitəsilə yardılan süni siyasi proseslər və ya regional ziddiyyətlər nəticəsində deyil, həm də dünya siyasətində cərəyan edən mürəkkəb diplomatik oyunlar nəticəsində süqut etdi. Əslində keçmiş Rusiya imperiyasının tərkibində yaranmış gənc respublikaların, o cümlədən Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası çətin idi və bu, ilk növbədə Rusiyanın qalib Antantaya üzv olması ilə bağlı idi. Bolşevizmi müvəqqəti və qeyri-mümkün bir hadisə kimi qiymətləndirən müttəfiqlər Rusiyanı öz keçmiş sərhədləri daxilində bərpa etmək ümidini itirmədilər və ona aid olan hər şeydə çox diqqətli idilər. Əslində Cənubi Qafqaz respublikalarının bolşevizmə qarşı öz qüvvələrini birləşdirə bilməməsi, eləcə də ermənilərin və gürcülərin bolşeviklərlə apardıqları gizli danışıqlar ümumqafqaz müqavimət hərəkatının yaranmasına imkan vermədi.

**Azərbaycan milli-demokratik dövlətinə qarşı xarici qüvvələrin daxildəki ”beşinci kolonla” birgə fəaliyyəti**

Tariximizdə ilk milli-demokratik dövlət forması olan Azərbaycan Xalq Cümhuriyyəti çox təəssüf ki, 1920-ci ilin 27-28 aprelində bolşevik Rusiyasının işğalına məruz qaldı. Bu problem indiyədək bir çox araşdırmaların mövzusu olsa da bu gün yenə də aktuallığını qoruyur, ona görə ki, tarixi qonşumuz olan Rusiyanın perspektiv planlarında Cənubi Qafqaza yenidən sahiblənmək arzusu XXI yüzilliyin sonlarında da bir neçə dəfə özünü bürüzə vermişdir. Belə ki, 1990-cı ilin 20 yanvarında ermənilərin də tərkibində olduğu rus qoşunlarının Bakıya işğalçı yürüşü, 2008-ci ilin 12 avqustunda Gürcüstanla olan müharibə və bu gün sülhməramlı maskasıyla Rusiyanın Qarabağa soxulması bunun bariz sübutudur. Buna görə də bu istiqamətdə araşdırmalar gücləndirilməklə milli şüuru daim yeniləməli, çar və sovet Rusiyasının Cənubi Qafqazla bağlı işğalçılıq planlarının bugünkü Rusiyanın da geopolitik gündəmində hər zaman aktivləşməyə meylli olduğunu ortaya qoymalıyıq.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu tariximizin ən böyük milli faciəsidir, çünki böyük millət qurucularının, milli tariximizin yetirdiyi mükəmməl ideya sahiblərinin yaratdığı milli-demokratik dövlətimiz daxili və xarici qüvvələrin dəstəklədiyi bolşeviklərin işğalı ilə bir anda məhv oldu. Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşı, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Xosrov Paşa Sultanov, Ceyhun bəy Hacıbəyli və s. kimi işıqlı şəxsiyyətlər ya həmin məşum günlərdə erməni terrorunun qurbanı oldular, ya da ömürlərinin sonuna kimi mühacirətdə vətən həsrəti ilə yenidən milli dövlətimizi bərpa etmək uğrunda sonadək mücadilə apardılar.

Fikrimizcə bu problemi tədqiq edərkən tarixi şəffaflıq və elmi obyektivlik naminə Azərbyacan milli-demokratik dövlətinin süqutunda bolşevik Rusiyasına dəstək olmuş bütün tarixi ünsürlər və amillər göstərilməlidir. Cümhuriyyətin məhvi üçün Bkıda gizli və açıq fəaliyyət göstərən yerli bolşeviklərə hər zaman İrandan, Rusiyadan, Türkiyədən və Transqafqazın öz daxilindən fasiləsiz kömək göstərilmişdir.Yeni yaranmış milli hökumətin hələ formalaşmaqda olan təhlükəsizlik orqanlarının bu qədər dağıdıcı ünsürlərə qarşı ardıcıl mübarizə aparması mümkün deyildi.

AXC idarəçiləri xarici siyasətdə dörd təhlükəli təhdidlə qarşı-qarşıya qaldılar. Bu təhdidləri belə təsnif etmək olar: 1) Bakı bolşevik-daşnaq rejimi, 2) General Denikinin Könüllü Ordusu, 3)

Ermənistanla gərginlik və sərhəd bölgələrində lokal müharibə, 4) Bolşevik Rusiyası. AXC-nin varlığına və sərhədlərinin təhlükəsizliyinə yönələn bu təhdidlərdən ilk ikisi birtəhər ortadan qaldırıldı, üçüncüsünə qarşı aktiv bir müxalifət göstərildi, lakin son təhlükənin öhdəsindən gəlmək mümkün olmadı və nəticədə bu dövlətin həyatı bolşevik istilası ilə sona çatdı.( İmanbeyli, 2020:233).Əsas təhdidlərdən əlavə bir də Azərbaycan Cümhuriyyətinin süqutuna yardım edən qüvvələr var idi ki, bunlar da "beşinci kolon"a daxil olan yerli bolşeviklər, Türkiyədən gəlmiş ittihadçılar, müxtəlif peşə sahibləri və Rusiyaya dövlət səviyyəsində diplomatik dəstək verən kamalistlər idi.

Azərbaycan Xalq Cümhuriyyətinin elanını bolşevik Rusiyası həzm edə bilmirdi.Ona görə də Sovet Rusiyası müxtəlif yollarla Azərbaycan Cümhuriyyətinə qarşı təzyiqlərini davam ettdirməkdəydi. 1919-cu il avqust ayının sonlarında Rusiya Xalq Xarici İşlər Komissarı Georgi Çiçerin və komissarlığın Müsəlman Yaxın Şərq Şöbəsinin müdiri Nəriman Nərimanov Azərbaycan, Dağıstan və Gürcüstan fəhlə və kəndlilərinə müraciət edərək, bu ölkələrin " öz təhlükəsizliyi üçün qorxan iqtidar dairələrinin Denikinlə anlaşacaqlarını" iddia edirdilər: "Sovet Rusiyası orada əsla öz hakimiyyətini yenidən qurmaq üçün əldə silah sizin cümhuriyyətinizin üzərinə yürümə fikrində deyildir...Sovetlər öz müqəddəratını təyin etmə haqqının sıx tərəfdarıdır...Əgər siz, Qafqaz müsəlmanalrı və gürcüləri, cümhuriyyətlərinizdəki idarə formasını mənimsəyirsinizsə sakitcə yaşayın, öz həyatınızı və bizimlə yaxşı qonşuluq münasibətləri qurun".(Nesibli, 2018:194-195). Bolşevik Rusiyası həmin dövrdə Transqafqazı işğal etmək üçün Denikin məsələsindən istifadə etməyə çalışırdı.Rusiya öz avantürist diplomatiyası ilə beynəlxalq münasibətlərin əsas prinsiplərini pozurdu.

Bu dövrdə Azərbaycan Hökumətinin fəaliyyətini iflic etmək üçün Rusiyadan dəstək alan, az qismi azərbaycanlı və daha çox qeyri millətlərdən olan yerli bolşeviklər "beşinci kalon" rolunu ciddi-cəhdlə oynamağa çalışırdılar. Cümhuriyyətin süqutuna aparan yolun başlanğıcı məhz bu zamandan qoyulmuşdu.Bu bolşevizm tör-töküntüləri Azərbaycanın istiqlalının ən böyük düşmənləri idilər.

Amma müasir Rusiya tarixşünaslığında yerli bolşeviklərin yeni hökumətə qarşı separatçı fəaliyyətləri daxili hökumət böhranı kimi şərh edilməyə çalışılmışdır. Rusiya tarixçiləri Vadim Muxanov və Mixail Volxoniskinin birgə yazdıqları " По следам Азербайджанской Демократической Республики. — М.: Изд-во «Европа», 2007. — 256 с." (Azərbaycan Demokratik Respublikasının izi ilə) adlı əsərdə qeyd olunur ki, "bir ildə baş verən üç hökumət böhranı həm parlament daxilində, həm də kənarda cərəyan edən kəskin siyasi mübarizənin nəticəsi idi. 1918-ci ilin dekabrında yaranan Xoyski hökuməti tezliklə Bakı Fəhlə Konfransının timsalında ciddi müxalifətlə qarşılaşmalı olur. 24 dekabr 1918-ci ildə çağırılan fəhlə konfransı Britaniya komandanlığından kollektiv müqavilənin bərpası üçün barışıq komissiyasının yaradılmasını və bütün həbs olunanların buraxılmasını tələb etdi. Komissiyanın iclasında iştirak edən M.Ə.Rəsulzadə bu məsələnin ingilis komandanlığına deyil, hökumətə aid olduğunu bildirsə də, lakin Bakı fəhlə Konfransının üzvləri real mürəkkəb siyasi vəziyyətə əsaslandılar. Üç gün davam edən dekabr tətili fəhlələrin qələbəsi ilə nəticələndi və ingilis komandanlığının həbs olunanların buraxılması haqqında qərarını parlament təsdiq etməyə tələsdi".(Волхонский,2007:160-161). Rus tarixçiləri bu separatçı yerli bolşevik dəstələrinin

hökumətə qarşı açıq-aşkar pozuculuq fəaliyyətlərini guya hökumət böhranı və fəhlələrin haqlı tələbləri kimi kimi qələmə verməyə çalışırlar.

Lakin Avropa tarixşünaslığında isə bu fəaliyyətlərin daim Rusiyadan dəstək aldığı və yönləndirildiyi obyektiv şərh olunur. J.Forsyth yazır ki,1919-cu ilin avqustundan Britaniya birliklərinin Cənubi Qafqazdan gedişindən dərhal sonra bolşevik fəaliyyətləri yenidən başladı. Ağqvardiyaçılar yavaş-yavaş yox olduqca, müttəfiq dövlətlər hərbi-siyasi dəstəklərini çəkdikcə bolşevik Rusiyasının günbəgün təhdidlərini artırması nəticəsində Azərbaycanın və bütün Qafqazın qalib gələ bilməyəcəyi aydın olurdu. Bakı komissarlarının edamından sağ qurtulmuş Anastas Mikoyanın həbsxanadan çıxıb Bakı bolşeviklərinin liderliyini ələ almasından sonra 1919-cu ilin fevralında onların fəaliyyəti artıq leqallaşmışdı. Bolşeviklərin may ayındakı təxribatları ilə baş verən qısa müddətli tətil onlarla milli sosialist Hümmət partiyası arasında münaqişəni kəskinləşdirdi. Sentyabrda Rusiyadan gələn əmrlərə uyğun olaraq təxribatçı propaqandalara başlayan bolşeviklərin Denikinin hücüm ehtimallarını əldə dəstəvüz edərək Bakıda bir “Cənubi Qafqaz” Sovetləri Qurultayı yaratma təklifləri Tiflis Menşevik Soveti tərəfindən rədd edilmiş, noyabr ayında isə onların yeni strategiyası olan “Bolşevik gəncliyi” konfransı” Gürcüstanda müəyyən kommunist fəaliyyətlərə yol açsa da, lakin ümumazərbaycan bolşevik üsyanı təşəbbüsləri uğursuzluğa düçar olumşdur. Bu zaman bölünmüş Cənubi Qafqazın rus istilasına açıq olduğunu anlayan “Müsavat” partiyasının ümumi təhlükəsizlik üçün Transqafqaz Konfederasiyasının yaradılması təklifi cavabsız qaldı.(Forsyth,2019:454-455).Görünür ki, beynəlxalq şərait də Cənubi Qafqazın müstəqilliyinin davam etməsi üçün müsbət perspektivlər vəd etmirdi.

Keçmiş diplomat və araşdırmaçı Candan Azerin Türkiyədə strateji araşdırmalar müstəvisndə çox yüksək qiymətləndirilən “Babadan oğula Güney Kafkasya.Türkiye-Güney Kafkasya ilişkileri” adlı klassik əsərində də qeyd olunur ki, Tomsonun çoxpartiyalı sistemə verdiyi dəstək mühitndə bolşevizmə yönəlmiş olan “Hümmət” də fəallaşmış və bolşeviklərin siyasi hadisələrdə iştirakına yol açmışdı. Beləliklə, sonradan sovet hakimiyyəti iyerarxiyasında yüksələcək olan Anastas Mikoyan 1919-cu ilin martında Azərbaycana gələrək bolşevikləri təşkilatlandırmağa başlamışdı.( Azer,2011:261-262). İstinad etdiyimiz əsərlərdən qəti əmin oluruq ki, lap başlanğıcdan antiazərbaycan hərakatının başında Mikoyan durubsa, deməli Azərbaycan Xalq Cümhuriyyətini məhv edən qüvvələrin əksəriyyəti ermənilərdən ibarət olmuş, yerli bolşeviklər də müstəqil milli-demokratik dövlətimizi məhv eləmək üçün erməni bolşevik-daşnak qüvvələrə yardım etmişlər.

Obyektiv tariximizin yazılması və müstəqil milli dövlətimizin məhvinə səbəb olmuş bütün qüvvələrin adlarının tarixə həkk olunması naminə həmin dövrdə öz məqsədlərinə uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna çalışmış bütün bolşevik yardımçılarının fəaliyyətini açıq-aşkar yazmalıyıq.

Azərbaycan əsilli Amerika tarixçisi Firuz Kazımzadə “Zaqafqaziya uğrunda mübarizə(1917-1921)” adlı qiymətli araşdırmasında doğru olaraq qeyd edir ki, Zaqafqaziya respublikalarının öz aralarındakı münaqişələri qarşılıqlı əməkdaşıq şəraitində həll edə bilməmələri onları Rusiyanın aqressiv işğalı qarşısında asan yemə çevirirdi. Gürcüstanın 1920-ci ilin yazında Azərbaycanla Ermənistan arasında barışıq yaratmaq cəhdləri uğursuzluğa düçar olunca, Bakıda bolşeviklərin fəaliyyəti geniş əhatə dairəsi qazandı. 1920-ci ilin fevralında Bakıda keçirilən Azərbaycan Kommunist Partiyasının qurultayı qəbul etdiyi qərarda Zaqafqaziyada bəy, xan, millətçi və kapitalistlərin hakimiyyətini devirib sovet dövləti yaratmağı özlərinin tarixi vəzifəsi hesab

edirdilər. Bolşeviklərin fəaliyyəti təkcə qərar qəbul etməklə bitmədi. 1920-ci il martın 9-da bolşevik rəhbərlərindən biri olan S.M.Kirov Bakıda olan Mikoyana yazırdı ki, orada hərbi dəstlər yaradıb 11-ci Ordu ilə müntəzəm əlaqə saxlanılsın ki, fəaliyyətimizi kordinasiya edə bilək. Eyni vaxtda Azərbaycan hökumətində yaranan fikir ayrılıqları səbəbilə güclənən böhran nəticəsində Fətəli xan Xoyski istefa verməyə məcbur oldu.( Каземзаде,2010:262-263). Hökumət böhranını dərinləşdirən bir nömrəli səbəb Rusiya Xarici İşlər Komissarı Çiçerinin Azərbaycana göndərdiyi diplomatik basqı məqsədli notalar oldu. Bu notalar hökumətin fəaliyyətini psixoloji cəhətdən iflic edirdi.

Azərbaycan zəhmətkeşlərinin "öz müqəddəratını təyin hüququnu" tanıdığını, lakin hakim siniflərin onları aldadacağını xəbərdarlıq edən bu maraqlı nota-çağırışdan sonra Moskva iqtidarı Azərbaycan üzərindəki baskılarına bir müddət ara verdi. Denikinin Könüllülər Ordusunun tamamilə ortadan qaldırılması ərəfəsində Moskva siyasi təzyiqlərini artırdı.1920-ci il yanvarın 2-də Çiçerin teleqrafla Azərbaycan xalqına və hökumətinə müraciət etdi. Bu müraciət sırf təbliğat xarakteri daşıyırdı. Bu müraciətdə Çiçerin açıq-aşkar Azərbaycan hökumətini hədələyirdi.(Nesibli,2021:364).1920-ci ilin yanvarında Azərbaycanın istiqlaliyyəti Antanta dövlətləri tərəfindən tanındıqdan az sonra yanvar ayının 23-də RSFSR Xalq xarici işlər komissarı G.V.Çiçerindən ikinci nota alındı. Birinci nota ilə müqayisədə ikinci nota daha təcavüzkar məzmuna malik idi. Çiçerinin notasında F.Xoyskinin 14 yanvar tarixli birinci cavab notası təhlil edilir və orada Azərbaycanın Denikin təhlükəsinə qarşı barışmaz mübarizə aparmasına məhəl qoyulmurdu. Azərbaycan xarici işlər nazirinin cavabı bolşevik komissarın notasında dolayısı yolla Könüllü orduya qarşı mübarizədən imtina kimi dəyərləndirilir, Azərbaycan hökumətinin Rusiyanın daxili işlərinə qarışmaqdan imtina etməsi Sovet Rusiyası tərəfindən ağqvardiyaçı qüvvələrə kömək kimi qiymətləndirilirdi. Məsələnin digər tərəfi ondan ibarət idi ki, Polşa, Finlandiya, Baltik dövlətlərindən fərqli olaraq, Qafqaz milli dövlətləri Sovet hökuməti tərəfindən hüquqi cəhətdən tanınmamışdı. Halbuki Denikin kimi mürtəce generalın rəhbərlik etdiyi səyyar hökuməti artıq Azərbaycanın istiqlaliyyətini tanımışdı. Ona görə də, fevralın 1-də G.V.Çiçerinə göndərilən cavab notasında F.Xoyski Azərbaycanın istiqlaliyyətinin tanınması məsələsində Sovet Rusiyasının konkret, açıq və aydın fikir söyləməsini zəruri hesab etmişdi.Əslində bu məsələdən bəhanə kimi istifadə edən Sovet Rusiyası ondan Azərbaycana təzyiqi gücləndirmək məqsədilə istifadə edirdi. Qırmızı Ordu Cənuba doğru irəlilədikcə bu təzyiq daha təhlükəli xarakter alır və suveren dövlət əleyhinə açıq təbliğat kampaniyasına çevrilirdi. Fevralın 2-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin işi haqqında məruzəsində V.İ.Lenin qeyd edirdi ki, "biz Denikin əleyhinə saziş bağlamağı Gürcüstan və Azərbaycana təklif etmişik. Onlar başqa dövlətlərin işlərinə qarışmadıqlarını bəhanə edərək, bizim təklifimizdən boyun qaçırtdılar. Görək Gürcüstan və Azərbaycanın fəhlə və kəndliləri buna necə baxacaqlar". 1920-ci ilin fevralın axırı, martın əvvəllərində edilmiş notalar mübadiləsi də təxminən əvvəlkilərlə eyni məzmunda idi. Fərqli cəhət bundan ibarət idi ki, Qırmızı Ordu artıq Azərbaycanın sərhədlərinə yaxınlaşmış, hökumət daxilində yaranmış təhlükə ilə bağlı müxtəlif fikirlər meydana çıxmışdı. Bundan əlavə, 1920- ci ilin fevralında bilavasitə Moskvanın göstərişi ilə yaradılmış Azərbaycan Kommunist (bolşeviklər) Partiyası mövcud vəziyyətdən ölkə daxilində dövlət çevrilişi həyata keçirmək məqsədilə istifadə etməyə cəhd göstərirdi. Sovet Rusiyasının xarici işlər komissarlığı fevral ayında Azərbaycanın istiqlaliyyətini tanımaq məsələsini müzakirə etdikdə, məhz Bakıda və Rusiyada fəaliyyət göstərən müsəlman bolşeviklərinin təklifini nəzərə alaraq, müsbət qərar qəbul etməmiş

və müstəqil Azərbaycan Respublikasını tanımaqdan qəti surətdə imtina etmişdi. Hələ 1919-cu ilin iyul ayında PK(b)P MK-nın Siyasi və Təşkilati Bürosunda "Hümmət partiyasının əyalət komitəsi hüququnda müstəqil Azərbaycan Kommunist Partiyası kimi və Azərbaycanın müstəqil Sovet respublikası kimi tanınması haqqında" məsələ müzakirə ediləndə, Azərbaycanın müstəqilliyinin tanınmasına meyllər hiss edilsə də, lakin sonralar müsəlman bolşeviklərinin təkidi ilə bundan imtina edildi. Azərbaycan Respublikasına Sovet Rusiyasının münasibəti siyasi mülahizələrdən daha çox iqtisadi amillərlə bağlı idi. 1920-ci ilin yazında vətəndaş müharibəsi, əsasən başa çatmış, fəlakətli dərəcədə dağılmış təsərrüfatı bərpa etmək kimi çətin bir vəzifə qarşıya çıxmışdı. Təsərrüfat həyatının bərpa edilməsi isə ilk növbədə neft məsələsi ilə bağlı idi. Nə qədər ki, vətəndaş müharibəsi gedirdi, Bakını tutmaq sadəcə olaraq, mümkün deyildi. Şimali Qafqazda Denikin könüllüləri və oyuncaq Xəzər hökuməti öz subyektiv niyyətlərindən asılı olmayaraq, Sovet Rusiyasının Bakıya doğru yolunda bir səddə çevrilmişdi. Lakin 1920-ci ilin yazında ağqvardiyaçı generallar üzərindəki qələbələrdən sonra vəziyyət Sovet Rusiyasının xeyrinə dəyişdi. Əslində elə 1920-ci ilin yanvarından başlanan diplomatik qarşıdurmanın arxasında da Bakı neftinə sahib olmaq məqsədləri dayanırdı.(Həsənli,2009:397-398). Azərbaycan bolşeviklərinin hər fürsətdə bolşevik Rusiyasının cümhuriyyətin müstəqilliyini tanıma meylinə ciddi-cəhdlə qarşı çıxması vətənə xəyanətdən başqa bir şey deyildi. Gürcü menşevikləri də sosialist-marksist idelogiyasını daşısalar da heç zaman bolşevik Rusiyasına nökərçilik etmədilər. Rusiya nə qədər çalışsa da yerli bolşeviklərin fəaliyyəti ilə Azərbaycanda sosilaist inqilabi dalğası yarada bilmədi.XI Qırmızı Ordunun Azərbaycana soxulması üçün lazım olan siyasi bünövrəni yaratmaq üçün həmin dövrdə Moskva Bakıda əhali arasında nüfuzları olan Türkiyəli kommunistlərdən və "İttihad və Tərəqqi" partiya mənsubları Xəlil Paşa və onun tərəfdarı olan mühacir zabitlərdən istifadə etmişdi.

Azərbaycan Cümhuriyyətinin qurucularından olmuş görkəmli ictimai-siyasi xadim, həyatının sonunadək istiqlalımızın bərpası uğrunda mübarizə aparmış Mirzə Bala Məmmədzadənin həmin dövrdə bilavasitə şahidi olduğu hadisələri özündə əks etdirən çox qiymətli " Milli Azərbaycan hərəkatı" adlı əsərində Xəlil Paşa və tərəfdaşlarının bolşeviklərə necə yardım etdiklərini geniş təsvir etmişdir. Mirzə Bala əsərdə hadisələrin iştirakçısı olmuş türk zabitlərinin xatirələrinə dayanaraq yazır ki, Xəlil Paşa Azərbaycandakı hökumətə müxalif partiyalarla görüşüb onalrı "Müsavat"a qarşı birləşib Nəsib bəy hökumətini yıxa biləcəklərinə inandırırdı.Məmməd Əmin Rəsulzadə bundan xəbər tutarkən, Xəlil Paşaya və digər türk siyasi mühacirlərə deyirmiş ki, "siz bu işlərə qarışmayın, belə etməyin, bizi rahat buraxın, yüz ildən çox əsarətində olduğumuz rusları biz daha yaxşı tanıyırıq, onlar hiylə ilə gəlib bizi əzəcəklər".Bu qiymətli əsərdə Kazım Qarabəkir Paşanın da həmin vaxt bolşeviklərə yardım istiqamətində Xəlil Paşanı təlimatlandırdığı məlum olur. Xəil Paşa Moskvanın göstərişi ilə XI ordunun başında Azərbaycana girərkən tərəfdarları ilə birgə əhali arasında təbliğ edrmişlər ki, guya Anadoluya milli-qurtuluş hərəkatına gedən qırmızı bolşevik ordusunu Azərbaycan Hökuməti Bakıya buraxmaq istəmir, buna görə də türk kommunistləri yerli və xarici bolşeviklərlə birlikdə milli hökumətə qarşı mübarizə aparmağa məcburdurlar.(Mehmetzade, 1991:127-135).

Görkəmli Amerika qafqazşünas alimi T.Svitoçovski isə məsələləri incə aryıntıları ilə verir.Müəllif haqlı olaraq qeyd edir ki, həmin dövrdə bolşeviklərlə təmas qurmaq üçün çabalayan kamalistlər və ittihadçılar üçün ən yaxşı zəmin Azərbaycandı. Savaşdan sonra Dağıstandan Bakıya gəlmiş Nuri adlı birisi 1919-cu ilin sentyabrında burada yarırəsmi Türkiyə xalqının nümayəndəliyini qurmuşdu.Türklərin Bakıdakı hümmətçilər vasitəsilə bolşeviklərin qeyri-leqal fəaliyyətlərilə

qurduğu əlaqələr onlar üçün daha ümidverici idi. Amma türklərin bu zaman Bakıdakı əsas nümayəndəsi Nuri deyil, Mustafa Kamala yaxın olan Fuad Sabitdi.Fuad Sabit Kazım Qarabəkirə göndərdiyi hesabatda bolşeviklərin onlara hər cür yardımda bulunacaqlarını bildirirdi. T.Svitoçovski Xəlil Paşanın əmriylə bolşeviklərlə qurulan əlaqəni iknici təşəbbüs kimi xarakterizə edir.Mustafa Kamal Ənvər Paşanın qohumu olan Xəlil Paşanın təcrübə və nüfüzundan yararlanmaqla, həm də onu Türkiyədən kənarda tutmağa çalışırdı. T.Svitoçovski yazır ki, Xəlil Paşanın bu zaman həm də ən önəmli qayğısı Anadolu ilə Azərbaycan arasındakı koridoru açıq tutmaq olduğundan, Naxçıvanda erməni idarəçilinə qarşı direnişi hər vasitə ilə dəstəkləyirdi. Ancaq Naxçıvandakı münaqişələrə Türkiyənin qatılması Qərb mətbuatında guya Ermənistana qarşı gizli bir Azərbaycan-kamalçı ittifaqının mövcudluğuna dair şaiyələrin dolaşmasına yol açmışdı. Əlimərdan bəy Topçubaşov həmin dövrdə Azərbaycan üçün təmin etməyə çalışdığı mütəfiqlərin dəstəyini əldən buraxmamaq üçün bu yalanların əsassız olduğunu bildirmişdi.Bu dövrdə istər Transqafqazdakı, istərsə də Anadoludakı türklər Azərbaycan hökümətinin kövrək diplomatik durumunu heç də nəzərə almırdılar.Mustafa Kamal Qarabəkir ilə birlikdə Transqafqaz strategiyasının məqsədlərini belə müəyyənləşdirmişdilər:Ermənistana zərbə vurulmasını, Gürcüstanın bitərfliliyinin təmin edilməsini və Azərbaycanın isə sovet sisteminə daxil edilməsini həyata keçirmək. Azərbaycan bu şərtlər altında sovet yardımının Anadoluya axması üçün körpü rolunu oynayacaqdı.Amma türk milliyətçi öndərlərinin fikrincə qərbmeylli bir qrupun idarə etdiyi Azərbaycan ingilis siyasətinin aləti kimi hər zaman iki dost ölkə olan Rusiya ilə Türkiyə arasında bir maneə olacaqdı.Müttəfiqlərin Transqafqaz Cümhuriyyətlərini tanıması Mustafa Kamal üçün çox önəmli bir siyasi hadisə idi. Mustafa Kamal komandanlarına göndərdiyi bir təlimatda, imperialistlərin Ermənistan, Gürcüstan və Azərbaycanı dəstəkləməsini bolşeviklərlə türkləri ayırmaq məqsədi daşıdığını və bu Türkiyəni çevrələyən uğurlu bir plan olarsa, çıxış yolu bu divarı söküb atmaq olacaqdı.(Svietoçovski,1988: 213-215).

Xəlil Paşa Azərbaycandakı bolşevikyönümlü fəaliyyətinə Mustafa Kamalla birlikdə qərar verdiklərini, əsas məqsədin bolşeviklərlə bir təmas qurub onların durumunu öyrənmək və Anadolu hərakatı üçün onlardan yardımlar almaq olduğunu, hətta ilk dönəm üçün bu fəaliyyətin gizli saxlanması üçün ona minbaşı Kamil Bəy isimli bir vəsiqə verildiyini bildirir. Kazım Qarabəkir Paşa da Xəlil Paşaya tapşırır ki, "Azərbaycanda yapılacaq işlər nə bolşeviklərlə svaşa, nə də ki, onların işğalına qeyd-şərtsiz mane olmaqdır. Ən böyük ehtiyacımız olan şey tez bir zamanda onlarla Azərbaycan Hökümətini razılaşdıraraq bizə vacib olan şərq yolunu açmaqdır. Əgər bizi məhv edəcək hansısa fəaliyyətlər görərsək, onda biz öz qüvvələrimizlə bu yolu açmaq məcburiyyətində qalacağıq".( Oral, 2016:209-210). (Buradaca istinad etdiyim Atilla Oralın əsərində bir şəkillə əlaqəli yanlışlığı qeyd etmək istərdim.Müəllif Azərbaycan Cümhuriyyət qurucularından İstanbul konfransına getmiş dörd şəxsin şəklini verir və altında adlardan birini yanlış yazır.Şəkildəkilər Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfikürdski və Əkbər ağa Şeyxülislamovdur.Lakin Əkbər ağanın adı yazılmayıb, o Aslan bəy kimi qeyd olunub, yəni Aslan bəy və Səfikürdski kimi verilib. (Oral,2016:192).

"İttihad və Tərqqi"nin yaradıcılarından və 1922-1923-cü illərdə Bakıda olmuş Mühitdin Birgen bu partiyanın Türkiyədə hakimiyyətdə olduğu və ondan sonrakı faciəli günləri böyük ustalıqla qələmə aldığı "İttihat ve Terakkide on sene. İttihat ve Terakkinin sonu" adlı iki cildlik (bu əsər Türkiyədə həm "İttihad və Tərəqqi" partiyasının, həm də dövrə aid klassik əsər hesab olunur) fundamental əsərində həmin dövrdə Azərbaycanda fəaliyyət göstərmiş türklərin kimlərdən və məqsədlərinin

nədən ibarət olduğu haqqında aydın təsəvvür yarada bilmişdir. Müəllif yazır ki, o zaman həm qonaq, həm də müəyyən işlərdə çalışan türklərin hamısının milli Azərbaycanın müqəddəratında bu və ya digər səviyyədə rolu olmuşdur. Bunlar təkcə ittihadçılar deyil, böyük fədakarlıqla azərilər tərəfindən əsirlikdən qaçırılanlar, eləcə də tacirlər, müəllimlər, politikaçılara qədər bütün təbəqələrdən var idi.Bütün bunların hamısı günahkar idi.Yazıçı doğru olaraq qeyd edir ki, hər hansı məqsədlə Azərbaycanda qalmış türklərin əsas qəbahətləri bu ölkənin daxili və xarici siyasətinə, ikinci günahları isə, Azərbaycan türkləri ilə Anadolu türkləri arasındakı münasibətlərə həddindən artıq qarışmaları idi. Bunlar milli Türkiyənin guya təmsilçiləri kimi Azərbaycandakı proseslərə həddindən artıq müdaxilə edirdilər. M.Birgenə görə türklərin üçüncü günahı o zamanın əsas iqtidar sahibi olan “Müsavat” əleyhinə fəaliyyət göstərmələri idi. Bu dövrdə əsasən “Müsavat” partiyasından ibarət olan Azərbaycan hökumət bloku polis, jandarma və müdafiə sisteminin böyük bir qismini həvalə etdiyi türkləri hər cürə maddi vəsaitlə təmin edirdi. Buna baxmayaraq türklər ya “İttihadi-İslam” adlı partiya sədri Qarabəyov kimi siyasi sərsərinin, ya da ki kommunistlərin arxasınca getmişlər.Yeri gəlmişkən vaxtilə Türkiyənin “İttihad və Tərəqqi” partiyasına yalmanaraq Qafqazda milli qurtuluş hərəkatını başlatmaq adı ilə ittihadçılardan pul və təlimat alan Qarabəyov, özü sonradan çar hakimiyyət orqanlarına bunu çuğullamışdı.Yenə də Türküstandan gələn əksər kommunistlərlə əlbir olan türklər, Azərbaycan hökümətini ingilispərəstlikdə günahlandıraraq geniş təbliğat kampaniyası aparmışlar.(Birgen,2009:719-722).

Yeri gəlmişkən M.Birgenin bu qiymətli əsərinin Azərbaycana aid olan hissəsi dilimizə tərcümə olunmuşdur. Bu əsər milli tarixşünaslığımız üçün, tüklərin XX yüzilliyin 20-ci illərində Azərbaycandakı fəaliyyətlərini tarixi-siyasi kontekstdə qiymətləndirmək baxımından ən qiymətli mənbədir. Əsərin Azərbaycan dilində olan hissəsi ilə tanış olacaq oxucu, sonradan Xəlil Paşa və əksər türklərin Azərbaycanın istiqlalı əleyhinə yapdıqları nankor və xəyanətkar fəaliyyətdən nə qədər peşiman olduqlarını görəcək. Sovet Azərbaycanının Xalq Maarif Komissarı Mustafa Quliyevin dəvəti ilə 1922-ci ildə müəllim kimi Bakıya işləməyə gələn və Batumda Xəlil Paşa ilə görüşməli olan M.Birgen yazır ki,”Xəlil Paşanı Azərbaycan məsələsində oynadığı rolla əlaqədar peşman, mütəəssir və hətta vicdan əzabı çəkən vəziyyətdə gördüm.Bu oyuna nə üçün qoşulmuşdu?İndi həmin sualın cavabına hətta özü üçün də aydınlıq gətirə bilmirdi.Müəyyən prinsiplərə əsaslanmayan siyasət onu gerçəkləşdirənlərin bundan sonra da yeni və təsadüfi təşəbbüslərə qoşulmayacaqlarına təminat vermirdi...Bizim ittihadçılar həqiqətən də xaricdəki siyasi fəaliyyətlərində çox uğursuz təsir bağışlayırdılar. Bir qismi bolşevizmi Azərbaycana gətirərək azərilərin taleyi ilə oynamış, onların həyatlarının pozulmasına, qırılmasına səbəb olmuşdular.” (Birgen, 2015:103-106).

Burada Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna yardım edən xarici amillərdən biri də Türkiyədəki kamalizmin 1920-1922-ci illər arasında sovet sosiyalizminin önündə referans yapması idi ki, fikrimizcə tarixi həqiqətlərin daim aydınlığa çıxması xatirinə buna toxunmaq zəruridir. Amma Mustafa Kamalın bolşeviklərin ağzına bir barmaq bal sürtməsi üçün də yetərli səbəbləri var idi. İstanbul hökumətinin öz mövcudluğunu davam etdirməsi prosesində Ankaranın ölkə xaricində yeganə müttəfiqi bolşeviklər idi. Anadoluda tamamilə təcrid edilmiş Ankara hökümətinin ittifaq qura biləcəyi, həm də ehtiyacı olan təcili silah yardımı ala biləcəyi tək seçim antiimperialist qüvvə bolşeviklər idi. Buna görə də Mustafa Kamal Anadoluya keçdikdən dərhal sonra bolşeviklərlə, silah, hərbi ləvazimat, texnika, pul və zəruri halda canlı qüvvə vermələri qarşılığnda əlaqələr qurmağı təklif edirdi.

S.Plaggenbortun qeyd etdiyi kimi,1920-ci il yazın əvvəllərində kamalçılar üçün qeyri-adi dərəcədə həyacanlı günlər yaşanırkən, Mustafa Kamalın sovet hökumətinə aprelin 26-da yazdığı məktubun ən incə ayrıntılarını incələməkdə fayda var, çünki bu məktub bolşeviklərlə kamalçıların bir-birini hansı səviyyədə dərk etmələrini öyrənməyə kömək edir. Bu məktub özündə daha çox milliyətçilərin izolyasiya siyasətini əks etdirdiyindən indiyədək elmi dövriyyəyə çox az gətirilmişdir. Hətta bir vaxtlar sovet tarixçilərinin əksəriyyəti belə bir məktubun varlığnı rədd edərək öz həmkarlarını çox hiddətləndirmişlər. Məktub Sovet İttifaqı üçün də o qədər xoşagəlməz idi ki, Türkiyə tarixi üzrə mütəxəssis olan sovet tarixçisi, professor A.M.Şamsuddinov məktubu, ikinci maddəni çıxardaraq1963-cü ildə nəşr etdirə bilmişdir. Bundan əvvəl isə Türkiyə üzrə araşdırmaçı Y.N. Rozaliyev sovet dönəmində arxivdə araşdırma apararkən məktuba rast gəldiyini, lakin səlahiyyətli şəxslərin məktubun nəşrinə qəti surətdə qadağa qoyduqlarını SSRİ-nin dağılmasından sonra bildirmişdi. Plaggenbort da buna görə yazır ki, dövlətlər də daxil bu məktubla əlaqəli kimlərsə, ciddi araşdırmaçı J. Gotthardın bu məktubun türkcə orijinal variantını 1959-61-ci illərdə yayımlanan “Die Welt des İslams” dergisinin altıncı sayında dərc etdirdiyini görsəydilər, bir o qədər də təlaş keçirməzdilər. Bu məktubun 1991-ci ildə Türkiyədə, Sovet İttifaqının yıxılmasından sonra isə 2007-ci ildə Rusiyada tərcüməsi yayınlandı. Bu məktubda var gücüylə anti-imperialist mövqe sərgiləyən Mustafa Kamal, ilk maddədə “ortaq səy və hərbi əməliyyatlar” təklif edirdi. Məktubda ikinci məsələ kimi bildirirdi ki, əgər bolşeviklər Gürcüstanın da bolşevik ittifaqına daxil və oradakı ingilis qüvvətlərini çıxarmağa razı olmasını təmin edərlərsə, onda Türkiyə hököməti imperialist Ermənistana qarşı hərbi əməliyyatlara başlaya bilər və Azərbaycanın da bolşevik çətiri altına girməsini təmin edər. Məktubun üçüncü hissəsində maliyyə və silah, hərbi hissələr üçün isə ərzaq yardımı rica olunurdu. 1920-ci ilin sonunda Türkiyənin Ermənistana qarşı savaşı sovetlərin də yardımıyla qələbə ilə sonuclandı.(Plaggenborg,2014:77-80).

Hal-hazırda Türkiyə tədqiqatçıları sərbəstcə Atatürkün Leninə yazdığı məktubdan bəhs etməkdədirlər. Çünki bu məktub Türkiyənin həmin dövrdəki həyati maraqlarını özündə əks etdirmişdi.Milli istiqlal savaşının davam etdiyi dönəmdə qarşıya çıxan böyük sıxıntıları Rusiya ilə qurulacaq ittifaq hesabına aradan qaldırmaq mümkün idi. Çünki Mustafa Kamal Paşanın məqsədi bu dostluq sayəsində şərq sərhədlərini qorumaq və Qərbdəki mübarizədə azad olmaq idi. Eyni zamanda, Müttəfiqlərə və yunanlara qarşı lazımi maliyyə və hərbi dəstək sovetlər tərəfindən veriləcəkdi. Sivas Konqresindən sonra Sovet hökuməti ilə dostluq qurmaq üçün bəzi cəhdlər edildi. Bu çərçivədə Xəlil (Kut) Paşa Mustafa Kamal Paşa tərəfindən Moskvaya göndərildi. Beləliklə, sovetlərlə münasibətləri yaxşılaşdırmaq silah, sursat və maddi yardım əldə etmək məqsədi daşıyırdı. Xəlil Paşa, 1920 -ci ilin yazında Moskvaya gələrkən Türkiyənin yaşadığı ciddi vəziyyəti izah edərək, qısa müddətdə qurulacaq milli hökumətin Sovetlərlə dostluq və sülh müqaviləsi imzalamaq niyyətindən bəhs edərək müsbət nəticələr əldə etdikdən sonra, Mustafa Kamal Leninə məlum məktubu ünvanladı. (Başkaya,2019:906-907).

Sovet arxiv sənədlərinə dayanan Türkiyə tarixçisi Mehmet Perincek qeyd edir ki,1920-ci il aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin açılışından sonra Mustafa Kamalın Leninə yazdığı məktub Ankara hökümətinin ilk xarici siyasi fəaliyyət cəhdidir. Mustaf Kamal məktubunda “ imperiyalist hökümətlərə qarşı əzilən dünyanın qurtuluşu üçün bolşeviklərlə hərbi qüvvələrini birləşdirmək” azusunu ifadə edir.Mustafa Kamal həm də Azərbaycan və Gürcüstanın Sovet Respublikalarına qatılmasına “məcbur edilməsini”, Türkiyənin də Ermənistana qarşı bir əməliyyat yapılmasını

vurğulayır. Məktubda maddi yardım edilməsi və diplomatik münasibətlər qurulması da tələb edilir.( Perincek, 2007: 50-51).

Bu məsələdə ilk qaynaqlara da baş vurmaq məqsədəuyğundur. 1921-ci ildə Məhəmməd Şərif Əfəndizadənin Türkiyədə çap olunmuş əsərində də Ankara hökümətinin Azərbaycan Cümhuriyyətinin məhvində bolşeviklərə müəyyən qədər siyasi dəstəyinin olduğu təəssüflə vurğulanır.Burada bəhs etdiyimiz mövu ilə bağlı çox maraqlı faktlar qeyd olunmuşdur. Müəllif Xəlil Paşanın canfəşanlıqla bolşeviklərə yardım etdiyini, Kiçik Tələt bəyi Azərbaycanın kəndlərinə göndərərək əhalini hökümətin əleyhinə təşviq etdiyini ürək ağrısı ilə yazır. Əsərdə özlərini Ankara hökümətinin agentləri hesab edən Doktor Fuad, Saleh Zəki, Yaqub, Əczaçı Nədim Agah və s. kimi Türkiyədən olan bolşevik tərəfdarı təxribatçılar rus bolşeviklərini evlərinə toplayıb bomba və pulemyotlar tədarük edirdilər. Xəlil Paşanın tövsiyəsi ilə Bakıda olan könüllü ordu komandanlığına təyin edilmiş Baha Səid bəy Azərbaycan ordusunu hökumətin əleyhinə qaldırmaqda heç bir xəyanətdən çəkinmirdi. Kazım Qarabəkir ordusundan axın-axın göndərilən zabitlər təkcə Bakıda deyil, Dağıstanda da bolşeviklərlə birgə fəaliyyət göstərirdilər. İxtiyarında Azərbaycanın yetmiş milyon pulu ilə Dağıstanda heç bir müsbət istiqamətli işlər görə bilməyən Nuru Paşa isə bilərəkdən və bilməyərəkdən cümhuriyyətin istilası üçün bolşeviklərə xidmət edirdi. M.Ş.Əfəndizadə ürək yanğısı ilə yazır ki, bunlarla yanaşı Ankara hökümətinin göndərdiyi rəsmi və qeyri-rəsmi məmurlar bolşeviklərlə birgə fəaliyyətdə bulunaraq bir qurşun atmadan Azərbaycanı təslim etdikləri ruslar, nəinki Anadoluya köməyə getmədilər, eləcə də sonradan onlara xidmət etmiş türklərin hamısını Azərbaycandan çıxardılar. Müəllif təssüflə qeyd edir ki, 18 avqust 1920-ci il tarixli “Yeni gün” qəzetində çap olunmuş Mustafa Kamal Paşanın Böyük Millət Məclisindəki bəyanatında sanki böyük bir uğur əldə olunmuş kimi Azərbaycanın istilası məmnunluqla izhar olunur.( Əfəndizadə, 2013:52-53).

Buradaca Mustafa Kamalın TBMM-dəki nitqinə istnad etmək yerinə düşər. Mustafa Kamal Atatürkün Böyük Millət Məclisindəki 14 iyun 1920-ci il tarixli nitqində açıqca bəyan edilirdi ki, “bolşevik Rusiyasının Qafqaza və Şərq cəbhəsinə yeritmək üçün ayırdığı X və XI orduları birbaşa bizim yol göstəriciliyimiz, təsirimiz, xidmətimiz sayəsində asanlıqla Şimalı Qafqazı keçib Azərbaycana daxil oldular və azərbaycanlılar da gələn bu orduları tam bir sükunətlə qəbul etdilər. Bu ordular Ermənistan və Gürcüstan sərhədlərində lazımi tədbirləri görüb, müvafiq hərbi mövqedə durdular. Digər tərəfdən də bizimlə birbaşa təmasda oldular.” Bəyanatında Mustafa Kamal Polşada yüksələn antibolşevik hərəkatıyla ilgili Rusiyanın Qafqazdakı ordularının xeyli hissəsini oraya sövq etməsi nəticəsində qalxan Gəncə üsyanını ingilspərəst Müsavat hökuməti tərəfdaşlarının irticaçı fəaliyyəti kimi qiymətləndirir. (Atatürk,2020:73-74). Dövrün tanınmış araşdırıcısı A.Balayev də “Məmməd Əmin Rəsulzadə (1884-1955)” adlı qiymətli əsərində qeyd edir ki, 1920-ci il aprelin 1-də Parlamentin Qarabağdakı ekstremal vəziyyətlə bağlı yığıncağında Əliheydər Qarayevin Azərbaycan hökumətindən hakimiyyətin təkidlə bolşeviklərə verilməsini tələb edən çıxışı həmin vaxt parlamentin fəxri qonaqlar üçün nəzərdə tutlmuş lojalarında əyləşmiş türk nümayəndələri tərəfindən alqışlarla qarşılanmışdı. Hadisələrin sonrakı inkişafı göstərdi ki, Qırmızı ordu hissələrinin Azərbaycana çağırılması təklifinə türklərin belə isti münasibəti heç də təsadüfi deyilmiş. Azərbaycandakı türk nümayəndələrinin belə davranışı kamalçı Türkiyə ilə bolşevik Rusiyası arasında əldə olunmuş razılaşmayla izah olunurdu. Məhz həmin razılaşma Azərbaycan Cümhuriyyətinin süqutuna gətirib çıxarmış başlıca amillərdən biri oldu.

Bakının bolşeviklər tərəfindən işğalından dərhal sonra S.Orconikidze V.Lenini məlumatlandıraraq yazırdı: " türk zabit və əsgərlər Bakıda inqilabın xeyrinə fəal rol oynadılar". RSFSR xarici işlər idarəsinin VIII Sovetlər qurultayına hesabatında isə deyilirdi: "Kamalçılar Azərbaycan vasitəsilə bizimlə əlaqəyə girdilər və onların oradakı tərfdaşları çevrilişin həyata keçirilməsində və Rusiyanın qırmızı qoşunlarının inqilabi Azərbaycan hökuməti tərəfindən dəvət olunmasında yardımçı oldular"( Balayev,2012:195-204).

Həmin dövrdəki Türkiyənin fərqli qüvvələrinin Azərbaycana qarşı fəaliyyətlərini və ideoloji mövqelərini incələyərkən bizdə belə bir qənaət hasil olur ki, istər ittihadçılar, istər kamalçılar, istərsə də Türkiyə ictimaiyyətinin müxtəlif kəsimləri Azərbaycan milli hərəkatının və eləcə də Azərbaycan Cümhuriyyətinin əsl mahiyyətini sonradan dərk etdilər. Çünki həmin dövrdə Osmanlı şinelindən çıxmış türk ziyalı və hərbi dairələri cümhuriyyətçilik anlayışını qavraya bilməzdilər.Türkiyə ictimaiyyəti çox sonralar anladı ki, bolşevik Rusiyası Azərbaycanın əsl milli dövlətini ortadan qaldırıb. Türkiyənin milli-istiqlal hərəkatında ölüm-dirim savaşı apararkən, Qərb imperializminə olan nifrəti kontekstində Azərbaycan Cümhuriyyətinə ingilispərəst damğası vurması təbii idi.Amma Azərbaycan Cümhuriyyətinin qurucuları Türkiyə milli-qurtuluş hərəkatına daim öz həmrəyliklərini bildirir və kömək etməyə çalışır, eyni zamanda bolşeviklərlə razılaşma da onların inqilaba gedəcək qüvvələr qarşısında əngəl damğasını öz üzərlərinə götürmək istəmədiklərinin təzahürü idi.

Nəsib bəy Yusifbəylinin baş nazir olduğu illərdə Türkiyədə Mustafa Kamalın rəhbərliyi ilə qurtuluş savaşı davam edirdi.İndoneziya, Hindistan, Pakistan, Əfaqanıstan və islam aləminin müxtəlif yerlərindən qurtuluş hərəkatına maddi yardımlar edilirdi. Bu zaman Azərbaycanda da Anadoluda yüksələn türk qurtuluş hərəkatına həmrəylik getdikcə artdığından Nəsib bəy yenicə qurulmuş cümhuriyyətin maddi durumunun ağır olmasına rəğmən Türkiyəyə maddi yardım etməyi qərara aldı. Nəsib bəy 1920-ci ilin əvvəllərində Pişnamazzadələrdən Əhmədzadə Məmməd Əliyə müəyyən miqdarda pul vəsaiti verib Türkiyəyə göndərdi. O zamanlar Anadolu işğal altında olduğu üçün 19 min türk lirəsi və 1 milyon fransız frankı miqdarındakı maddi yardım və səkkiz qitə neft yardım sənədi Ankara hökümətinə ancaq 1920-ci ilin oktyabrında çata bildi.( Süslü İ,2017:251).

**Ermənilərin və bolşeviklərin cümhuriyyətə qarşı birgə planları.**

Azərbaycan Cümhuriyyətinin varlığını təhdid edən ən təhlükəli ünsür daxildəki ermənilər və Ermənistanın daşnak hökuməti idi. Məhz buna görə də Sovet Rusiyasının qurduğu planda ən həssas ünsür Ermənistanın Azərbaycana qarşı olan patoloji düşmənliyindən istifadə etmək idi. Məmməd Əmin Rəsulzadənin yazdığına görə, 1920-ci ilin əvvəllərində Moskvaya gələn Ermənistan nümayəndələri Pirumov və Zaxaryan ərazi güzəştləri müqabilində Azərbaycan Cümhuriyyəti hökümətini devirmək haqqında öz hökümətlərinin təkliflərini təqdim etdilər. Həmin bu iki erməninin Moskvada rusca "Həyat-i Miləl" qəzetinə verdikləri müsahibədən məlum olurdu ki, Azərbaycan Kommunist Partiyasının Qarabağdakı erməni üsyanından bir az əvvəl inqilabi komitələr adıyla höküməti devirmək üçün keçirdiyi iclasın iştirakçılarının həmin üsyanla bilavasitə əlaqəsi var imiş. M.Ə.Rəsulzadə qeyd edir ki, hökümətin tərəddüd və böhran vəziyyətində olduğu bir vaxtda, Novruz bayramı gecəsi ermənilər Xankəndinə qəfil hücuma keçdilər və Bakı ilə olan təması kəsmək üçün məşhur Əsgəran keçidini də işğal etdilər.( Resulzade, 2020:199-200). Erməni hərbi birləşmələri ilə birgə həyata keçirilən bu akt, Azərbaycan hökümətini bütün mövcud hərbi qüvvələrini Qarabağa yeritməyə məcbur etdi.Bax beləcə həmin

andan Qarabağ Azərbaycanın taleyində acı rol oynadı.Bu zaman Qarabağ və digər rayonlarda gedən şiddətli döyüşlər Azərbaycan kommunistlərinin kömək üçün Rusiyaya müraciət etmələri üçün stimul oldu. Hətta bu zaman Fransanın İstanbuldakı Ali Komissarı diplomatik kanallarla Parisə bildirirdi ki, "Azərbaycan ordusu Qarabağ hadislərinə görə cənuba konsentrasiya olunmuş, şimal sərhədləri isə açıq qalmışdır." Azərbaycanın işğal olunduğu günlərdə Şuşa qəzasının Xankəndi məntəqəsində Azərbaycan milli ordusunun 8 min əsgəri toplanmışdı. Azərbaycan 1920-ci ilin 28 aprelində işğal edilən günün sabahı Ermənistandan gələn daşnakların Qarabağda keçirdikləri qurultay Dağlıq Qarabağın Ermənistan Respublikasına birləşdirilməsi haqqında qərar qəbul etdi.Təcili bu qərar elə həmin vaxt Sovet Rusiyası ilə antiazərbaycan danışıqları aparan erməni nümayəndələri vasitəsilə G.Çiçerinə çatdırıldı.Azərbaycanın işğalından faydalanaraq bu qərarı həyata keçirmək cəhdi baş tutmadı.( Гасанлы,2010:153). Əslində arxiv sənədlərinə baxdıqca erməni silahlı birləşmələrinin hələ yanvar ayından başlayaraq Qarabağ və Zəngəzur qəzsının müsəlman kəndlərinə aramsız basqınları və əhalini qətl etmələri, Azərbaycan tərəfinin Ermənistan daşnak hökümətinə etiraz notalarına baxmayaraq qarşısı alınmamışdır.( Azerbaycan, 2001:87-91).

Amerika tarixçisi Samuel A.Veems yazır ki, " bu erməni liderlər bir az gec anlayan insanlardı.Halbuki o zaman erməni tacirləri və iş adamları Qarabağın Azərbaycan Cümhuriyyətinin bir parçası olaraq qalmasını istəyirdilər,çünki onlar bütün malları Azərbaycandan alırdılar. Birnci Dünya müharibəsi dövründə ruslara dəstək verən ermənilər elə bilirdilər ki, yıxılacaq Osmanlı imperiyasının torpaqlarını Rusiya onlara verərək müstəqil bir Ermənistan dövləti quracaq və indi də bolşeviklər Azərbaycanı işğal etdkdən sonra Qarabağ, Zəngəzur və Naxçıvanı onlara verəcək. Lakin aprelin 30-da Azərbaycan Sovet respublikasının erməni silahlı qüvvələrinin Qarabağ və Zəngəzurdan təcili çıxarılması haqqında Ermənistana verdikləri ultimatum onların ümidlərini boşa çıxardı. (Weems,2006:308-312). Tam əminlklə deyə bilərik ki, əgər Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal olunmasıydı Qarabağ məsələsi tamamilə həll olunacaq, o dövrdə kütləvi aclıq içərisində olan Ermənistan isə getdikcə Azərbaycandan tam asılı vəziyyətə düşəcəkdi. Daşnak hökümətinin bacarıqsızlığı, dövlət idarəçiliyindən qətiyyən xəbərsizlikləri, yeritdikləri maliyyə siysətinin iflasa uğraması, Ermənistanın ciddi təbii qaynaqlara malik olmaması, çıxış yolunu müsəlman bölgələriniə davamlı hücumlar edib mal-mülklərini yağmalamaqda görürdülər. Ermənistanın baş naziri olmuş O.Kaçaznuni öz hesabatında ölkənin tam bir fəlakət həddində olduğunu, çörək və mal-qara ilə bol olan Ağbaba, Şərur və Vedidən yığdıqları məhsulu isə Kazım Qarabəkir Paşanın Ermənistanı diz çökdürən vaxt ona təhvil verdiklərini yazır.( Качазнуни, 1927:56-57).

Azərbaycan Cümhuriyyətinin yıxılmasının mühüm səbələrindən biri də dövlət orqanlarında ciddi dövlət nəzarəti rejiminin qurula bilməməsi, təşkilati boşluq, yəni istər kadrların işə götürülməsi, istərəsə də onların fəaliyyətinə nəzarət olunmaması idi. Ən əsası isə AXC-də təhlükəsizlik xidmətinin təşkilində olan ciddi qüsurlar, ümumiyyətlə bolşeviklərin intriqalarının gözardı edilməsi və onların dövlət orqanlarına soxulmasının qarşısının alınması üçün ciddi tədbirlərin görülməməsi bağışlanmaz xətalar idi. Rusiya Azərbaycanın işğalına qədər dövlət sistemindəki bu boşluqdan istifadə edə bilmiş və siyasətdə məqbul və ya qeyri-məqbul bütün vasitələrdən istifadə etmişdi. Bu bolşevik Rusiyasının zatən yaranışdan bəri idelogiyalar arxasında yürütdüyü avantürist siyasi mahiyyətindən irəli gəlirdi.Rusiya birbaşa hərbi müdaxiləyə qədər öz xəfiyyələrini Azərbaycanın dövlət orqanlarında yerləşdirmişdi və bu gizli agentlər əldə

etdikləri qiymətli mülki və hərbi məlumatları bolşeviklərə ötürürdülər. Məhz cümhuriyyətin süqutunun əsas səbəblərindən biri də bu idi.

Müasir rusiya tarixçisi Rudolf İvanov zəngin arxiv sənədlərinə dayanaraq yazır ki, cümhuriyyət dövründə milli ordunun baş qərargahına soxula bilmiş Ələsgər Şahbazov adlı bir bolşevik əldə etdiyi ən qiymətli məlumatları bolşeviklərə ötürürmüş. 1917-ci ildən bolşevik partiyasına üzv olan Ələsgər Şahbazov bir neçə bolşeviklə birgə müsavat ordusu sıralarına çağırılır və birbaşa ordunun ürəyi olan qərargahda rabitəçi kimi xidmətə götürülür. Müsavat ordusunda olan bütün bolşeviklərə verilən partiya tapşırığı müsavatçıların fəaliyyətini Bakıda qalxacaq fəhlə sinfinin üsyanınadək hər addımda iflic etmək idi. AXC ordusunda olan laqeydlik və boşluqlar bolşevik agentlərinə ən qiymətli məlumatları asanlıqla əldə etməyə imkan verirdi. Onlar həm dövlətdən, həm də öz partiyalarından ötürdükləri məlumatlara görə məvacib alırdılar. Bolşeviklər AXC ordusuna sadəcə casusluq etmirdilər, onlar partiya tapşırıqlarını yerinə yetirirdilər.

Bolşeviklərin AXC parlamentinə hakimiyyətin təhvil verilməsi haqqında 12 saat ərzində cavab verilməsini tələb etdikləri ultimatum müzakirə edilərək, hakimiyyətin yubadılmadan bolşeviklərə verilməsi qərara alınır. Rabitəçi Şahbazov 28 aprel səhəri qərargah növbətçisindən təcili Hərbi nazir S.Mehmandarovla əlaqə yaratması haqında əmr alır. Azərbaycan ordusunun qərargahına gələn Mehmandarov elan edir ki, “Azərbaycan Hökümətinin axşam verdiyi qərara görə hakimiyyət fəhlə-kəndli hökümətinə təhvil verilmişdir. O artıq hərbi nazir olmadığını və bu vəzifəyə Çingiz İldırımın təyin olunduğunu bildirir.” Bolşeviklər AXC hökümətinin hakimiyyəti sivil formada onlara təhvil verməsini heç də bütün dünyaya bəyan etmədilər, çünki Petroqradda olduğu kimi AXC hökümətinin burnunun ucunda yerləşmiş və milli ordunun daxilində pozuculuq fəaliyyəti göstərmiş “5-ci kalonun” Müsavat hökümətini devirdiyi məlum idi. 27 aprelin elə sabahı günü Hərbi nazir Mehmandarovun əmri ilə tərkibində üç atlı polk olan Azərbaycan süvari diviziyası bütün hərbi vəsaiti ilə birgə XI Ordunun tərkibinə keçdi.İmperialist müharibədə qəhrəmanlıqları ilə əfsanəyə çevrilmiş bu diviziya, süvari hissələrə malik olmayan bolşeviklər üçün göydəndüşmə oldu. R.İvanov Rusiyanın yeni arxiv materiallarına əsasən bildirir ki, 11 may 1920-ci ildə Azərbaycan süvari ordusunun XI Orduya daxil olmuş 87 zabiti könüllü surətdə sovet hakimiyyətini qəbul etmişdilər (Иванов, 2007:170-173).

Buradaca cümhuriyyətin süqutu ilə bağlı çox maraqlı və həm də tarixçilərin hələ də üstündə ciddi dayanmadıqları bir məsələni incələmək istərdim. Bildiyimiz kimi aprel ayının 12-də 5-ci Bakı və 1-ci Cavanşir alayları həyata keçirdikləri geniş miqyaslı hücüm əməliyyatları ilə apardıqları qanlı döyüşlər nəticəsində ermənilər üzərində tam qələbə çalaraq o zaman ən mühüm strateji məntəqə sayılan Keşişkəndə daxil olmuşdular. Bu arada, ilk demokratik Azərbaycan dövləti üçün taleyüklü olduğu ortaya çıxan qərarlar verildi. Keşişkənd əvvəlcə erməni üsyançıları tərəfindən dağıdılmış, buranı tutan və paytaxtdan uzaq düşmüş Azərbaycan qoşunlarının artıq burada görəcəyi bir iş qalmamışdı. Qarabağdakı bütün qoşunların Bakıya dönməsi lazım idi.Bu məsələ hələ ki, tarixdə çox dumanlı vəziyyətdə qalıb. Qeyd etdiyimiz kimi qələbədən sonra geriyə qayıtmaq haqqında teleqrafla hərbi nazir Mehmandarovdan izn istənilir, lakin həmin vaxt nazir xəstə olduğundan onun səlahiyyətlərini icra edən Əliağa Şıxlinski orduya Qarabağda qalmağı əmr edir. Ehtimal ki, bu məsələ Mehmandarovla razılaşdırılmışdı, çünki o xəstə olsaydı belə onunla əlaqə yaratmaq heç də çətin deyildi. Məncə bu əvvəlcədən hazırlanmış ssenari idi. Deməli ordunun daxilində də bolşeviklərlə əvvəlcədən gizli razılaşmış qruplar var idi (Иванов, 2007:162).

Qurulan bu tarixi teatr XI ordunun Bakıya girişini asanlaşdırmaq üçün idi.Mənim fikrimcə Orconikidze və Stalin Mehmandarov və Şıxlinskinin bu plan müqabilində sağ qalmaları üçün Nərimanova vəd vermişdilər. İşğal dövründə Cənubi Qafqazda bütün gizli və açıq planlar Orconikidze və Stalin tərəfindən hazırlanırdı. Zəngəzur və Naxçıvanın ermənilərə verilməsi də bu iki şəxsin bilavasitə həyata keçirdikləri planlar idi. Azərbaycanın işğal edilməsi hərbi-siyasi əməliyyatına da onlar başçılıq edirdilər. Hətta Stalin və Orconikidze Qafqaz əməliyyatının bir çox detallarını Lenindən gizli saxlayırdılar. Çünki Lenin yerlərdə üsyanların qalxmasından qorxaraq Cənubi Qafqazın bütövlükdə işğal edilməsinin qəti əleyhinə idi.

Tanınmış alman tarixçisi Yorq Baberovskiyə görə məhz Cənubi Qafqazın və Azərbaycanın işğal olunması üçün bütün səlahiyyətlər vətəndaş müharibəsinin gedişində yaranmış Cənubi Qafqaz Diyar Komitəsinə və 1920-ci ilin aprelində yaranmış partiyanın Qafqaz bürosuna (Kavbüro) verilmişdi. Çarizmin çanişinliyinə bənzəyən bu orqanlar mərkəzlə periferiyalar arasında keçid rolunu oynamaqla mərkəzin strateji planlarını tamamilə müstəqil şəkildə yerinə yetirirdilər. Bu orqanlar yerli partiya orqanlarından əldə etdikləri məlumatları mərkəzə ötürməklə onların siyasi kursunu da müəyyən edirdilər. Orconikidze özünə sadiq və Qafqazın stalinçi funkusionerlərinin hamısını bu orqanlara soxa bilmişdi. Lenin Orconikidzeyə çox inanırdı. Orconikidzenin gücü yalnız partiya təşkilatı ilə məhdudlaşmırdı.O XI Ordunun Hərbi İnqilab Komitəsinin sədri olaraq, hərbi məlumat kanallarını və komandanlıq strukturlarını da nəzarətdə saxlaya bilirdi. Stalin və Orconikidze sistematik şəkildə dezinformasiya ilə məşğul olmaqla bütün yerli partiya fəallarını özlərinə tabe edə bilmişdilər. Leninin yanında çalışan Stalinin arvadı Nadejda Alliluyeva Cənubi Qafqaz Diyar Komitəsinin göndərişlərini Leninə şəxsən təqdim edirdi ki, Stalin bu kanalı da öz nəzarətinə ala bilmişdi ( Баберовски,2010:210-211).

1920- ci il aprelin ortalarında Stalin xarici işlər idarəsinə Qafqaz hökümətləri ilə siyasi münasibətlər qurmağın xarakterini izah edərkən tapşırırdı ki, onların nəzərində sovet hökümətinin sülhpərvər imicini yaratmaq, digər tərəfdən Azərbaycanla Gürcüstan arasındakı hərbi konvensiyanı sarsıtmaq vacibdir. Xüsusilə Müsavat hököməti bolşeviklərin barışcıl mövqeyinə əmin olmalıdır.

Azərbaycanın işğalı demək olar ki, müqavimətsiz baş tutdu. Müsavatçılar öz talelərinə səssizcə boyun əydilər.Yalnız Lənkərandakı Azərbaycan hərbi hissələri bolşeviklərin gəlməsindən ruhlanaraq yerli idarəçilərə qarşı baş qaldıran rus köçkünlərini yatışdırdılar. Aprelin 26-da XI ordu Dağıstandan qatarla Bakıya doğru irəliləyərkən, yerli hümmətçilərə tapşırılan vəzifə, guya Bakıda baş verəcək sosialist inqilabı ilə ordunun gəlişini uzlaşdırmaqla hadislərə inqilabi qanunauyğunluq görüntüsü vermək idi. Aprel ayının 27-də Həmid Sultanov Azərbaycan parlamentinin deputatlarına bəyan etdi ki, inqilabın Bakıda öz hakimiyyətini qurmaqda məqsədi qətidir və ona görə də milli hökümət 24 saat ərzində öz səlahiyyətlərini təhvil verərsə, müqavimət göstərməyəcək nazirlərin həyati təhlükəsizliyi təmin olunacaqdır. Beləcə XI Ordu Bakıya soxuldu.Orconikidze mərkəzə bildirirdi ki, guya əhali qırmızı ordunu böyük ruh yüksəkliyi ilə qarşılamış və bu mənzərə Oktyabr inqilabı günlərindəki Peterburqa bənzəməkdədir (Баберовски,2010:211-212).

Beləliklə, 1920 -ci il aprelin 27 -də Antanta Ali Şurası tərəfindən tanınan müstəqil və demokratik Azərbaycan dövləti Sovet Rusiyası tərəfindən edilən işğal nəticəsində mövcudluğunu dayandırdı. O gündən etibarən, indiki Sovet Rusiyasının müstəmləkəçilik siyasətində,əslində 1914-cü il

sərhədləri daxilində imperiyanı bərpa edən Leninin geniş planlarını rəhbər tutan yeni bir mərhələ başladı.

Tarixi ədəbiyyatda Bakını ələ keçirmək üçün aparılan hərbi əməliyyatın bütün anları ətraflı təsvir edilmişdir. M.Q.Efremovun rəhbərliyi altında "III İnternasional", "Qırmızı Astraxan", "Qırmızı Dağıstan" və "Əksinqilabın ölümü" adlı bir qrup sovet zirehli qatarı ilə A. Mikoyan, Q. Musabəyov, H. Cəbiyev, 1918 -ci ildə Həştərxana köçürülmüş M. Şahbazov da Bakıya gəldilər. Qeyd etmək lazımdır ki, sovet işğalı zamanı zirehli qatarlar üçün vacib vəzifələr qoyulmuşdu:qoşunlara məqsədyönlü atəş dəstəyi vermək və müstəqil hərbi əməliyyatlar aparmaq ( Назарли,2014: 32).

Bolşeviklərin Azərbaycan hökümətinə aprelin 27-də göndərdiyi tələblərə cavab olaraq verilən yeddi maddəlik təklif özündə ən kövrək ümid işartısını əks etdirirdi: 1) sovet hakimiyyətinin idarəçiliyində Azərbaycanın tam müstəqilliyi saxlanacaq; 2) Azərbaycan Kommunist partiyasının yaratdığı hökümət müvəqqəti orqan olacaq; 3) hər hansı xarici təzyiqlərdən asılı olmayaraq, Azərbaycanın yeganə idarəçilik forması fəhlə, kəndli və əsgər deputatları Soveti olacaq; 4) yalnız məsul vəzifələrdə olanlar istisna olmaqla, bütün dövlət müəssisələrində olan qulluqçular öz yerlərində saxlanılacaq; 5) hökümət və parlament üzvlərinin can və mülkiyyət toxunulmazlığına yeni müvəqqəti kommunist hököməti zəmanət verəcək; 6) qırmızı ordunun Bakıya vuruşaraq girməsinin qarşısının alınması üçün tədbirlər görüləcək; 7) haradan gəlməsinə baxmayaraq yeni hökümət ixtiyarında olan bütün vasitələrlə Azərbaycanın müstəqilliyini təhdid edən istənilən xarici qüvvələrə qarşı mübarizə aparacaq. Azərbaycan parlamentinin fövqəladə iclasının iştirakçılarının əksəriyyəti böyük səs çoxluğu ilə bu sənədi qəbul etdilər (Азербайджанская,1998:539). Əslində milli-demokratik, müstəqil Azərbaycan dövlətinin qurucuları xislətinə bələd olduqları bolşeviklərin bu çox qiymətli tarixi sənədin bir maddəsinə belə əməl etməyəcəklərinə tam əmin idilər. Sadəcə bu sənəd Azərbaycan Cümhuriyyətinin qurucularının həm müstəqilliyn qorunması üçün son ana qədər apardıqları mübarizənin təzahürü və gələcək nəsillər qarşısında Vətənin istiqlalına qarşı heç bir zaman xəyanət etmədiklərinin tarixi təsdiqi idi.İstiqlala olan bu bağlılığı və sədaqəti cümhuriyyətçilər mühacirətdəki fəaliyyətlərində də sona qədər sübut etdilər.

**Antibolşevik hərəkatın başlanması.**

Antibolşevik mübarizə elə işğalın həmən ardından Tiflisdə başladı.Yaranmış siyasi kontekstdən istifadə etməyə çalışan Azərbaycan antibolşevik hərəkatının rəhbərləri Tiflisdə fransız nümayəndəliyinə konkret təkliflərlə müraciət etdilər. Bununla bağlı Ə.M.Topçubaşının arxivində çox qiymətli məlumatlar mövcuddur. Birinci dünya müharibəsində Fransanın Fəxri süvari legion ordeninə layiq görülmüş, Gəncə antibolşevik üsyanının rəhbərlərindən biri general Teymur bəy Novruzov Azərbayacnın bolşeviklərdən azad olunmasında kömək göstərilməsi üçün iyunun 18-də məktubla podpolkovnik Korbelə müraciət etdi. Məktubunda bolşevik işğalından sonra Azərbaycanda yaranmış vəziyyəti və müqavimət hərəkatını təsvir edən general, 6000 nəfərlik bir diviziya ilə Azərbaycana daxil olub buradakı antibolşevik dəstələrlə birləşərək, böyük bir milli-azadlıq ordusu yaradılmasından bəhs edirdi. Novruzov diviziyanın təşkili üçün təcili olaraq ona 2 süvari artilleriya batareyası, 3 dağ batareyası, 100 ədəd “Lyuis” sistemli pulemyot, 6000 tüfəng və 10 milyon güllə təhvil verilməsini, bunlarla yanaşı artilleriya mərmiləri, zəruri telefon avadanlıqları, 6 min nəfərlik təchizat və 25 milyon rubl məbləğində pul vəsaiti verilməsini xahiş edirdi. Azərbaycan üsyançı rəhbərlərinin fəaliyyəti Ə.M.Topçubaşının rəhbərlik etdiyi Paris sülh

konfransındakı diplomatik nümayəndəlik tərəfindən də tam dəstəklənirdi. Hətta Ə.M.Topçubaşı Antantanın Ali şurasına göndərdiyi notada Azərbaycandakı vəziyyət, cümhuriyyətin süqutuna təsir edən amillər, Azərbaycanın tam müstəqil dövlət kimi yaşaya bilməsi üçün malik olduğu 200 milyon pud neft ehtiyatı, ölkədə antibolşevik əhvali-ruhiyyəsi, parlamentli dövlət quruluşu və s. haqqında məlumat verir və azərbaycan xalqının ictimai-siyasi azadlığı uğrunda mübarizədən əl çəkməyəcəyini bildirir və Ali şuradan real kömək göstərilməsini xahiş edirdi.Topçubaşı London konfransına gələn Ankara hökümətinin xarici işlər nazri və nümayəndə heyətinin başçısı Bəkir Sami bəyə də 1921-ci il martın 10-da göndərdiyi notada Azərbaycanı və eləcə də bütün Qafqazı işğal zülmündən hazırda qurtara biləcək Şərqdə yeganə qüvvə Mustafa Kamal Paşanın komandanlıq etdiyi türk qoşunu olduğunu və 1918-ci ildə Azərbaycana göstərilən qardaş köməyinin yenidən təkrarlanmasını xahiş edirdi.Topçubaşı kömək edilməyəcəyi təqdirdə Azərbaycan xalqının məh olacağını və Türkiyə işğalçını Transqafqazdan çıxaracağı təqdirdə, Tiflisdən Bakı, Dərbənd və Vladiqafqaza qədər onun yolunun açılacağını Bekir Sami bəyə bildirirdi (Топчибаши, 2016:138-560).

İyunun 14-də Osmanlı ordusunun keçmiş polkovniki, çərkəz İsmayıl Berkok və 1919-cu ilin aprel-may aylarında dağlıların Parisdəki diplomatik nümayəndəliyinin tərkibində olan Əziz Meker, Dağlıq Çeçenistan, İnquşetiya və Şimali Dağıstanda üsyan mərkəzi yaradıb və bu hərəkatı bütün Şimali Qafqaza yaymaq üçün oxşar təkliflə Fransanın Qafqazdakı Ali komissarı Demyan de Martelə müraciət etdilər (Топчибаши,2016:139).

Ən maraqlı və mühüm məqamlardan biri də, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirətə getməyə məncbur olmuş milli dövlət qurucularının Avropa ölkələrində, Türkiyədə, İranda və s. yerlərdə nəşr etdikləri mətbuat orqanlarında Azərbaycanda baş verən bütün siyasi, iqtisadi və milli-mədəni hadisləri həyacanla izləmiş və bolşevizmin başlıca məqsədinin Azərbaycanın əsasən neftini və başqa sərvətlərini yağmalamaqdan ibarət olduğunu bütün dünyaya car çəkmişlər. Xüsusən Azərbaycan Cümhuriyyətinin başçısı olmuş Məmməd Əmin Rəsulzadənin öndərliyi və idarəsi ilə Türkiyədə 1923-1927-ci illər arasında nəşr olunan "Yeni Kafkasya" jurnalında Türkiyə ictimaiyyətinin diqqətini əsarətdə olan Qafqaz türklərinin acınacaqlı durumuna cəlb etməyə çalışmışlar. Bu jurnalın səhifələrində daim bildirilirdi ki, Transqafqazdakı bolşevik idarəçiliyi əhalidə dərin bir mənəvi böhrana səbəb olmuşdur və bu böhran təkcə müvafiq region üçün deyil, bütün məzlum Şərqin mənafeyi baxımından zərərlidir. Jurnalın ikinci cildində cümhuriyyət qurucularından Mirzə Bala Məmmədzadənin "Türk tarixində qara bir gün" adlı dərin məzmunlu və Azərbaycanın istilasını hərtərəfli təsvir edən irihəcmli məqaləsində, 27 aprel günü bir çox tanınmış şəxslərin və partiyaların tez xəyanət yolunu tutaraq öz mövqelərini dəyişib bolşeviklərn tərəfinə keçdikləri, Bakıda cərəyan edən hadisələrin real siyasi mahiyyəti və bolşeviklərə dəstək olan xarici qüvvələrin siyasi siması şərh olunur. Məqalədə qeyd olunur ki, istiladan sonra özünü İttihadi-İslam firqəsi adlandıran Qarabəyovun partiyası tələsik bir bəyanatla bütün təşkilat və üzvlərinin Kommunist Partiyasının xidmətinə keçdiklərini bildirdilər. Səmədağa Ağamalıoğlu, Əhməd Cövdət Pepinov, İbrahim Əbilov və Şeyxülislamovdan ibarət menşevik firqəsi də tərəddüdsüz özlərini bolşeviklərin tərəfdarı elan etdiklərindən tezliklə mühüm vəzifələrə təyin olundular. Bunlardan yalnız həmin vaxt Şimali Qafqazda olan Əhməd Cövdət və Paris sülh konfransında Azərbaycan diplomatik heyətinin tərkibində olan Əkbərağa Şeyxülislamov öz menşevik qayələrindən ömürlərinin sonunadək dönmədilər. Menşevik firqəsi və parlament üzvlərindən Hacı Kərim Sanıyev kimilər hətta Fövqəladə Komissiyaya (ÇEKA) belə xidmət

etməkdən çəkinmədilər. Məqalədə Hacı Kərim Sanıyevin məşhur Azərbaycan ədibi Firudin Bəy Köçərlinin qətlində də əli olduğu bildirilir.

İnqilabi Sosialist Xalqçı Partiyası da eynilə bolşeviklərin siyasi platformasını qəbul etdiklərini bildirərək vəzifələr əldə etdilər, lakin tezliklə aldandıqlarını anlayaraq gizli fəaliyyətə keçdiklərindən əsas siyasi liderləri olan Arslan bəy Səfikürdski, Cəmo bəy Hacınski və Rza bəy Qaraşarlı həbs olunaraq Sibirə sürgün edildilər. Yalnız Müsavat partiyası 28 apreldən etibarən yeni bir tərkiblə gizli fəaliyyətə keçdiklərini qərara aldıqlarından, onlara qarşı şiddətli repressiyalar davam etməkdə idi. Müəllif qeyd edir ki, həmin vaxt Azərbaycanın 1700 nəfər münəvvər və hərbi xadimi həbs edilmişdi. Bu məqalədə Azərbaycanın həmin zamandakı siyasi mənzərəsi ən incə nüanslarınadək təsvir edilmişdir (Yeni Kafkasya,2018:227-238).

Ötən il Hacıbayramlı Nağı Bayramgilin nəşr olunmuş “Bolşevik işğalı və mübarizəmiz.Siyasi mühacir xatirələri” adlı qiymətli əsərində 27 aprel bolşevik işğalına qarşı Azərbaycanda uzun müddət davam edən genişmiqyaslı üsyanlardan bəhs olunur.Hətta qeyd olunur ki, usyanların ən yüksək həddə çatdığı 30-cu illərdə böyük şəhərlər istisna olmaqla, bütün ölkə xeyli müddət usyançıların əlində olub. 1930-cu ilin yaz və yay aylarında isə üsyanlar bütün Cənubi Qafqazı bürümüş və tədricən iri qaçaq hərəkatlarına çevrilibmiş (Bayramgil,2020).

Bolşeviklərin Azərbaycanı işğal edərkən atdıqları ilk addımlardan biri də, Bakıda olan xarici dövlətlərin 400 diplomatını həbs etmək olmuşdu. A.Mikoyan sonradan öz xatirələrində yazırdı ki, “ hələ Xaçmazda olarkən Bakı qəzetlərindən aldığımız məlumat Azərbaycan hökümətinin xarici dövlətlərin nümayəndələrini Bakıya gətirmək imiş”.Ona görə də bolşeviklər diplomatları həbs edirlər ki, onlar Tiflisə qaça bilməsinlər (Гасанлы,2011: 600). Bolşeviklərin bu tədbirləri işğal faktının xaricə çıxışının qarşısını almaq üçün idi.Çünki həmin vaxt Qızıl Ordunun Cənubi Qafqaza girməsinin İngiltərənin Yaxın və Orta Şərqdəki geosiyasi maraqları üçün real təhlükə yaratdığını nəzərə alan Kerzon Batumda ingilis qarnizonunun gücləndirilməsini, Qafqaz və ya İrana əlavə qoşunların, o cümlədən aviasiya göndərilməsini, Bakının müdafiəsi üçün Gürcüstan və Azərbaycana silah tədarükünü təklif edirdi. Kerzonu U.Lonq və Britaniya Hərbi Dəniz Qüvvələrinin ehtiyacları üçün fars körfəzi və Bakı nefti üzərində Britaniya nəzarətini saxlamağa çalışan donanma admiralı D.Bitti də dəstəkləyirdi (Дарабади П,2006:207).

Azərbaycan Cümhuriyyətinin hərbi-siyasi tarixini araşdıran P.Darabadi yazır ki, Azərbaycan İnqilab komitəsi aprelin 29-da Azərbaycan ordusunun fəhlə-kəndli XI ordusu tərkibinə qatılaraq yenidən formalaşdırlması haqqında qərar verdi. Mayın 7-də isə Azərbaycan İnqilab Komitəsinin verdiyi qərar, Azərbaycan SSR-nin Fəhlə-Kəndli Qırmızı Ordusu və Donanmasının inzibati, təşkilati qaydada, eləcə də bütün növ təchizatı və ehtiyatı ilə birgə XI ordu komandanlığının Volqa-Xəzər hərbi donanmasının tərkibinə qatılması haqqında idi. Bu təcili qərarlar milli ordunu nəzrət altına alıb bütöv halda qərb sərhədlərinə yeritmək üçün verilmişdi. Çünki gürcü ordusu çox mühüm və strateji əhəmiyyəti olan Poylu körpüsünə nəzarəti əla alaraq, Gəncə və Zaqatala istiqamətində hərəkət edərkən, erməni hərbi birləşmələri isə Qazax qəzasını işğal edərək Dağlıq Qarabağın içərilərinə soxulmuşdular. Bu arada, elə ilk gündən “sinfi düşmənlərə”- burjuaziyaya, xanlara, bəylərə, milli intellektual təbəqəyə, eləcə də milli ordu komandanlığına qarşı başlanmış repressiyalar, eləcə də general və zabitlərin əssasız olaraq vəzifələrdən kənarlaşdırılması Bakıda əhali arasında narazılıqların artmasına səbəb olmaya bilməzdi. 1920-ci il mayın 12-də Gəncənin

keçmiş qubernatoru, xalq arasında böyük nüfuz sahibi olan Xudadat bəy Rəfibəyli gizli surətdə aradan götürülərək, mayın 20-də güllələnmişdi.

Bütün bu bolşevik aqressiyaları 20-ci illər boyu heç bitməyən üsyanların baş verməsinə səbəb oldu. Təkcə bu faktı qeyd etmək yetər ki, 1924-cü ilədək ölkənin müxtəlif bölgələrində-Tərtər, Ağdam, Bərdə, Zaqatala, Göyçay, Şəki, Quba, Lənkəran və s. yerlərdə əlliyə yaxın üsyan baş vermişdi (Дарабади, 2013:267-269).

**Nəticə**

Azərbaycan Cümhuriyyətinin süqutu Cənubi Qafqazda yaranacaq demokratik dövlətçilik ənənələrinin möhkəmlənməsinə imkan vermədi. Cümhuriyyətin süqutuna çalışan qüvvələrin heç də hamısı öz məqsədlərini reallaşdıra bilmədilər. Azərbaycanda müstəqil sovet dövləti yaratmağa cəhd edən yerli bolşeviklər repressiya mənqənəsində məhv edildilər. Bolşevik Rusiyasının planlarına xidmət edən Anadoludan gəlmiş funksionerlər sonradan Azərbaycandan qovuldular. Zəngəzurun böyük bir hissəsi ermənilərə verilməklə Rusiya ilə müttəfiqlik yaratmağa çalışan Türkiyənin Cənubi Qafqazda möhkəmlənmək meyllərinin qarşısına sədd çəkildi. Naxçıvan Moskva və Qars müqavilələrinin təspit etdiyi hüquqi status nəticəsində ermənilərin işğalından qurtuldu.

Nəticədə qeyd edim ki, Bakıda heç bir inqilabi şərait olmadığından inqilab da baş vermədi. Sadəcə bütün beynəlxalq hüquq normalarına rəğmən, beynəlxalq birlik tərəfindən tanınmış hökümət xarici işğal nəticəsində devrilmiş oldu. Azərbaycanın Avropada olan diplomatik nümayəndiliyi Spa, London, Genuya, Haaqa, Lozan, Streza konfranslarına etdikləri müraciətlərdə beynəlxalq birliyin diqqətini Azərbaycanın işğalına yönəltməyə çalışsa da, təəssüf ki, Antanta rəhbərləri Rusiyanın bu işğalına laqeyd qaldılar. Qərbin bu mövqeyi Rusiyanın sonradan bütün Cənubi Qafqazı işğalına şərait yaratmış oldu. Bununla Millətlər Liqası özünün Azərbaycanın de-fakto tanınması haqqında vermiş olduğu qərarına hörmətsiz yanaşmış olurdu.

**Ədəbiyyat**

Nesibli, N.L.(2018).Kuzey Azerbaycan: istiklalden ikinci işğale (1918-1920).Ankara: Altınordu

Волхонский М. Муханов В.(2007). По следам Азербайджанской Демократической Республики. Москва: Изд-во Европа

Forsyth J. (2019).Kafkasya.Bir tarih.İstanbul:Ayrıntı.

Azer C.(2011).Babadan oğula Güney Kafkasya.Türkiye Güney Kafkasya ilişkileri.İstanbul:Truva

Каземзаде Ф.(2010). Борьба за Закавказье.Баку: CA&CC PRESS ® СТОКГОЛЬМ

Nesibli L.N. (2021) Azerbaycan tarihi.Millet-devlet-siyaset. Ankara: Altınordu

Həsənli C. (2009). Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918- 1920). Bakı: GARISMA MMC

Mehmetzade M.B. (1991) Milli Azerbaycan hareketi.Ankara:Kültür dernegi

Birgen M.(2009). İttihat ve Terakkide on sene.2.cilt.İttihat ve Terakkinin sonu.İstanbul:Kitap

Birgen M.(2015) İttihad və Tərəqqidə 10 il.Azərbaycan 1922-1923-cü illərdə.Bakı:Qanun

İmanbeyli V. (2020). Azerbaycan Demokratik Cumhuriyeti (ADR) dış politikası ve Ali Merdan Topçubaşı.İstanbul: Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 9, 2 227-245 DOI: 10.26650/jes.2020.015

Plaggenborg S. (2014). Tarihe emretmek.Kemalist Türkiye, faşist İtaliya, sosialist Rusiya. İstanbul: İletişim

Başkaya M. (2019).Rus arşiv belgelerine göre milli mücadile yıllarında Anadolunun genel durumu Türkiye komünist partisi. Trabzon Üniversitesi: In book: SOSYAL, BEŞERİ VE İDARİ BİLİMLERDE AKADEMİK ÇALIŞMALAR (pp.905-922).september

Perincek M. (2007). Atatürkün sovyetlerle görüşmeleri.Sovyet arşiv belgeleri.İstanbul:Kaynak,

Əfəndizadə M.Ş. (2013). Azərbaycan və inqilabı. Bakı: Elm və Təhsil

Atatürk ve Kafkasya.( 2020).Azerbaycan Ermenistan Gürcistan.Doğu Perincekin sunuşuyla…İstanbul:Kaynak

Oral A. (2016). Nuri Killigil. İstanbul: Demkar

Svietoçovski T. (1988). Müslüman cemaatten ulusal kimlige.Rus Azerbaycanı 1905-1920.İstanbul:Bağlam

Süslü İ.(2017). Azərbaycan siyasi tarixində Nəsib Bəy Yusifbəyli (1918-1920).Bakı:Alatoran

Resulzade M.E. (2020). Seçme eserler 1.İstanbul:Ötüken

Гасанлы Д. (2010)Карабах:поиск исторической првды.Кафказ и глобализация.Тифлис:жур.том 4 выпуск 3-4

Weems S.A. (2006).Ermenistan: terorist "hıristiyan" devletin sırları.İstanbul:İleri

Azerbaycan belgelerinde ermeni sorunu.(2001).Ankara: Ankara : T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü

Качазнуни О. (1927).Дашнакцутюн больще ничего делать!Тбилиси: Закнига

Иванов Р. (2007).Именем союза советских...Жизнь и гибель комбрига Нахичеванского.Москва: Герои Отечества

Баберовски Й. (2010) Враг есть везде . Сталинизм на Кавказе.Москва: Фонд "Президентский центр Б. Н. Ельцина" : РОССПЭН

Назарли А. Э. (2014). XI Красная Армия в Северном Азербайджане: оккупация, расправы, бесчинства.Баку: Elm və təhsil.

Balayev A.(2012).Məmməd Əmin Rəsulzadə (1884-1955).Bakı:Çıraq.

Азербайджанская Республика.Документы и материалы.1918-1920 гг.(1998).Баку:Элм

Топчибаши А. М. (2016).Парижский архив 1919–1940. В четырех книгах. – Книга первая 1919–1921. — Составители Г. Мамулиа и Р. Абуталыбов. Москва: Художественная литература

Yeni Kafkasya.(2018).2.Yıl.1924-1925.Sayı:1-24.İstanbul: TEAS Press

Bayramgil N.B. (2020). Bolşevik işğalı və mübarizəmiz.Siyasi mühacir xatirələri.Bakı:Qanun

Гасанлы Д. (2011).Русская революция и Азербайджан: Трудный путь к независимости (1917-1920). Москва: Флинта

Дарабади П.(2006).Геополитическое соперничество на Кавказе в начале XX века.(геоисторический очерк).Тифлис: Кавказ и глобализация.журн, том,1(1)

Дарабади П.(2013). Военно-политическая история Азербайджана (1917-1920 годы).Баку: Издательский дом «Кавказ»